**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT STATİSTİKA KOMİTƏSİ**

**Q Ə R A R**

**№ 50/09**

**Bakı şəhəri** **27 dekabr 2024-cü il**

**Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun və Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 avqust tarixli 176 nömrəli Fərmanının qəbul edilməsi ilə əlaqədar normativ hüquqi aktların kolliziyasının aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin bəzi qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 24 iyun tarixli 115 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə"nin 9.6-cı və 14.4-cü bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Əmək Məcəlləsində, Azərbaycan Respublikasının Vergi Məcəlləsində, Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində, "Təhqiqat, ibtidai istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Məcburi köçkünlərin və onlara bərabər tutulan şəxslərin sosial müdafiəsi haqqında", "Gömrük orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət sosial sığorta sistemində fərdi uçot haqqında", "İşsizlikdən sığorta haqqında" və "Məşğulluq haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 28 iyun tarixli 1195-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 12 avqust tarixli 176 nömrəli Fərmanının icrasının təmin edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 26 avqust tarixli 454s nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi

**qərara alır:**

1. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci il 20 noyabr tarixli 81/9 nömrəli qərarı ilə təsdiq edilmiş "Tibbi kadrlar haqqında" 17 №-li illik rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş"in "Formanın doldurulma qaydası" bölməsinin dördüncü hissəsinin üçüncü cümləsi "Faktiki işləyənlərdən əlavə, əmək qabiliyyətini müvəqqəti itirməsi, ezamiyyətdə, məzuniyyətdə olması ilə əlaqədar, habelə iş yeri və vəzifəsi saxlanılmaqla qanunvericilikdə nəzərdə tutulmuş digər hallarda müəyyən səbəbdən müvəqqəti olaraq iş yerində olmayanlar da hesabata daxil edilir." redaksiyasında verilsin.

2. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2012-ci il 20 noyabr tarixli 82/9 nömrəli qərarı ilə təsdiq edilmiş “Müalicə-profilaktika müəssisəsinin fəaliyyəti haqqında” 30 №-li illik rəsmi statistika hesabatı formasının doldurulmasına dair göstəriş”in “Cədvəl 1100 – hesabat ilinin axırına müəssisənin ştatları” bölməsinin dördüncü hissəsi “Sütun 5-ə yalnız əsas iş yeri üzrə işləyənlərin sayı daxil edilir. Sosial məzuniyyətdə və uzunmüddətli ezamiyyətdə olan şəxslər bura daxil edilmir.” redaksiyasında verilsin.

3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2021-ci il 15 dekabr tarixli 29/03 nömrəli qərarı ilə təsdiq edilmiş “Ev təsərrüfatlarının tədqiqatı üzrə müayinə formalarının doldurulmasına dair göstəriş”in 13.12.1-ci yarımbəndinin ikinci cümləsində “əmək kitabçası hansı təşkilatda saxlanılırsa, həmin iş də onun əsas” sözləri “əvəzçilik üzrə əmək müqaviləsi bağlanan iş yeri işçinin əlavə” sözləri ilə əvəz edilsin.

4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin 2022-ci il 21 dekabr tarixli 43/09 nömrəli qərarı ilə təsdiq edilmiş “Sosial müavinətlər, kompensasiyalar və təqaüdlər haqqında” 4-MKT №-li (rüblük) rəsmi statistika hesabatı formasının “III bölmə. Azərbaycan Respublikası Prezidentinin təqaüdləri” cədvəlinin 34-cü sətrində və “VI bölmə. İqtisadi rayonlar və inzibati ərazi vahidləri üzrə Azərbaycan Respublikası Prezidentinin təqaüdlərinə dair məlumatlar” cədvəlinin “Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas iş yeri üzrə elmi müəssisə və təşkilatlarda və ya təhsil müəssisələrində azı 25 il çalışmış, elmi dərəcəsi olan, işləməyən, əmək pensiyası hüququ olan şəxslərə” sütununun adında “Əmək kitabçasında müvafiq qeydiyyat aparılan əsas” sözləri “Əsas” sözü ilə əvəz edilsin.

5. Qərar qəbul edildiyi gündən üç gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilsin.

6. Aparatın Sosial statistika və Həyat keyfiyyətinin statistikası şöbələrinə tapşırılsın ki, bu qərardan irəli gələn məsələləri həll etsinlər.

7. Qərarın icrasına nəzarət Statistika işlərinin əlaqələndirilməsi və strateji planlaşdırma şöbəsinə həvalə olunsun.

**Sədr** **Tahir Budaqov**